**Azərbaycan Respublikasının Prezidentinin 1998-ci il 6 iyun tarixli, 716 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə»yə dəyişikliklər və əlavələr edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Baytarlıq Komitəsi və Dövlət Bitkilərin Karantini Müfəttişliyinin ləğv olunduğu və həmin orqanların səlahiyyətlərinin Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə verildiyini nəzərə alaraq qərara alıram :

I. Azərbaycan Respublikasının Prezidentinin 1998-ci il 6 iyun tarixli, 716 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Əsasnamə»yə aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1.2.11-ci bəndi aşağıdakı redaksiyada verilsin :

«2.11. Bitki mühafizəsi və bitki karantini sahəsində müvafiq tədbirlərin həya-

ta keçirilməsi».

2 3.13-cü bəndində «xidmətini» sözü « və bitki karantini xidmətlərini» sözləri

ilə əvəz edilsin.

3.Aşağıdakı məzmunda yeni 2.12-ci ,3.23-cü və 3.24-cü bəndlər əlavə edilsin:

«2.12. Baytarlıq təbabəti sahəsində fəaliyyətin beynəlxalq tələblərə uyğun ola-

raq tənzimlənməsi .

3.23. Baytarlıq xidmətini təşkil edir, dövlət baytarlıq nəzarətini həyata keçirir.

3.24. Öz Səlahiyyətləri daxilində baytarlıq preparatlarının, vitaminləri, yem əlavələrinin, habelə mal - qaranın boy artımı sürətləndirən və məhsuldarlığı yüksəldən bioloji stimulyatorların və hormonların istehsalına, saxlanmasına, heyvandarlıqda və baytarlıqda tətbiqinə nəzarət edir, onların sınağını və qeydiyyatını aparır».

II. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 29 iyun 2000-ci il**

**№ 363**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2883-2884.**